# Ümummilli Liderin prinsipial mövqeyinin və tarixi gerçəklərin ifadəsi

**1999-cu il noyabrın 18-19-da Türkiyənin İstanbul şəhərində ATƏT-in (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) tarixi sammiti keçirildi. Bu Zirvə toplantısı yalnız region dövlətlərinin deyil, həm də qlobal miqyasda beynəlxalq münasibətlər sisteminin gələcək inkişafına təsir edən hadisələrdən biri kimi yadda qaldı. Sammitdə təhlükəsizlik, iqtisadi əməkdaşlıq və enerji məsələləri ilə yanaşı, regional münaqişələrin həlli, xüsusilə də keçmiş Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi müzakirə mövzusu idi.**




Sammitin keçirildiyi dövrdə beynəlxalq münasibətlər sistemində yeni güc balansı formalaşırdı. SSRİ-nin dağılmasından sonra keçmiş sovet respublikalarının bəzilərində qeyri-sabitlik hökm sürürdü. Ermənistan-Azərbaycan münaqişəsi regionun əsas probleminə çevrilmişdi. Qarabağ və ətraf yeddi rayonun Ermənistan tərəfindən işğalı regional təhlükəsizliyə ciddi təhdid yaradırdı.

Bu kontekstdə İstanbul sammiti Azərbaycanın milli maraqlarını müdafiə etmək üçün əhəmiyyətli platforma idi. Azərbaycan Prezidenti Heydər Əliyev münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həlli məsələsini dünya liderlərinin qarşısına qətiyyətlə qoydu.

Sammit çərçivəsində Heydər Əliyevin çıxışında Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün toxunulmazlığını vurğuladı, Ermənistanın təcavüzkar siyasətini açıq şəkildə qınadı və dünya ictimaiyyətini münaqişənin ədalətli həlli üçün konkret addımlar atmağa çağırdı.

Beynəlxalq arenada böyük nüfuz sahibi olan Heydər Əliyevin çıxışı sadəcə diplomatik bəyanat deyildi, həm də prinsipial mövqenin ifadəsi idi. Dahi lider ATƏT-in Minsk qrupunun fəaliyyətinə toxunaraq vasitəçilik səylərinin konkret nəticələr vermədiyini tənqid etdi və Azərbaycanın sülh istəyini vurğuladı.

İstanbul sammiti, həmçinin Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin taleyini həll edən görüşlərdən biri kimi tarixə düşdü. Heydər Əliyevin uzaqgörənliyi və liderlik qabiliyyəti sayəsində layihənin reallaşdırılması istiqamətində əhəmiyyətli irəliləyiş əldə edildi. BTC Azərbaycanın beynəlxalq enerji bazarlarına inteqrasiyasını təmin etməklə yanaşı, regionun geosiyasi əhəmiyyətini də artırdı.

İstanbul sammitindən keçən 25 ilə yaxın müddətdə həmin görüşdə qəbul edilən qərarlar və edilən çıxışlar Cənubi Qafqazın gələcək inkişafına yön verən amillərdən biri olmuşdur.

Ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq arenadakı mövqeyi gücləndi. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün o dövrdə qəbul edilən prinsiplər, xüsusilə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı ilə bağlı vurğulanan məqamlar 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın haqlı mübarizəsini beynəlxalq hüquq müstəvisində dəstəkləyən əsaslardan biri oldu.

BTC kəməri bu gün də strateji əhəmiyyətini saxlayır, Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı kimi rolunu təsdiqləyir.

İstanbul sammitində ümummilli lider Heydər Əliyevin çıxışı Azərbaycanın dövlətçilik tarixinə yazılmış parlaq səhifələrdən biridir. O dövrdə qəbul edilən qərarlar, verilən bəyanatlar Azərbaycanın gələcək inkişafına mühüm təkan verdi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq arenada öz haqlı mövqeyini sübut etdi və bu gün də həmin mövqe qətiyyətlə qorunur.

Bu sammit bir daha göstərdi ki, tarixin çətin məqamlarında müdrik liderin rolu əvəzolunmazdır. Heydər Əliyev həmin kürsüdə yalnız Azərbaycanın Prezidenti kimi deyil, həm də bütün dünya üçün beynəlxalq hüququn müdafiəçisi kimi çıxış edirdi. Bu çıxış zamanında dəyərləndirildi və bu gün də öz əhəmiyyətini qoruyub saxlayır.

**Tacir SADIQOV,**
**"Respublika".**